# Narkomaniyaya qarşı mübarizə mövzusunda tədbir keçirilmişdir






Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzində Azərbaycan Milli QHT Forumu və Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə Dövlət Komissiyasının İşçi qrupu ilə birgə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı" çərçivəsində "Narkomaniyaya qarşı mübarizədə vətəndaş cəmiyyətinin rolu" mövzusunda tədbir keşirilmişdir.

Tədbiri giriş sözü ilə rayon icra hakimiyyəti başçısının birinci müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə rayon komissiyasının sədri Abil Ağasəfov açaraq mövzunun aktuallığı və bu istiqamətdə rayonda görülən işlər barədə ətraflı danışmışdır.

Sonra Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə Dövlət Komissiyasının İşçi Qrupu rəhbərinin müavini Vasif Quliyev, Azərbaycanlıların və digər Türkdilli Xalqların Əməkdaşlıq Mərkəzinin sədri İlham İsmayılov, "Çıraq" Psixoloji Araşdırma və Dəstək Mərkəzinin sədri Vüsalə Xəlilova, Milli QHT Forumunun prezidenti, Dövlət Komissiyasının üzvü Rauf Zeyni, Qəbələ Rayon Polis Şöbəsi cinayət-axtarış bölməsinin rəisi polkovnik-leytenant Azər Cəfərov mövzu ətrafında çıxış etmişlər. Onlar respublikamızda bu sahədə həyata keçirilən tədbirlər haqqında yığıncaq işrirakçılarını məlumatlandırmış, hər bir ölkə vətəndaşını narkomaniyaya qarşı mübarizədə fəal təbliğatçı olmağa çağırmışlar.

**Fotolar İ. Vəlizadənindir.**

## QƏBƏLƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ 2015-ci İLİN NOYABR AYINDA YERLƏRDƏ KEÇİRƏCƏYİ QƏBULLARIN VƏ GÖRÜŞLƏRİN QRAFİKİ

| Tədbirin keçiriləcəyi yaşayış məntəqəsinin adı (şəhər, qəsəbə, kənd) | Tarix | Görüşün keçiriləcəyi yer və vaxtı |
|---|---|---|
| Zalam kəndi | 03.11.2015 | Kənd məktəbi, saat $15^{00}$ |
| Zarağan kəndi | 10.11.2015 | Kənd məktəbi, saat $15^{00}$ |
| Mıxlıqovaq kəndi | 17.11.2015 | Kənd məktəbi, saat $15^{00}$ |
| Savalan kəndi | 24.11.2015 | Kənd məktəbi, saat $15^{00}$ |

**Qəbula dəvət olunurlar:** təhsil, səhiyyə, mədəniyyət və turizm şöbələrinin, hüquq-mühafizə orqanlarının, əhalinin sosial müdafiəsi, məşğulluq, gigiyena və epidemiologiya mərkəzlərinin, dövlət sosial müdafiə fondunun, poçtamtın, telekommunikasiya qovşağının, elektrik şəbəkəsinin, yol istismar, baytarlıq, qaz istismar, suvarma sistemləri, meşələrin bərpası və mühafizəsi idarələrinin rəhbərləri.

# "Sənin səsin – sənin gələcəyin" adlı toplantı

Qəbələ Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Azərbaycan Respublikası Milli Məclisinə keçiriləcək seçkilərlə əlaqədar "Sənin səsin-sənin gələcəyin" devizi altında 14 oktyabr 2015-ci il tarixdə Qəbələ Turizm və Otelçilik üzrə Peşə tədrisi mərkəzində ilk dəfə səs verən gənclərlə maarifləndirici toplantı keçirililmişdir. Toplantıda rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanova, 116 saylı Qəbələ Dairə Seçki Komissiyasının əməkdaşı Xalidə Rəsulova, rayon ağsaqqalar şurasının sədri Nazim Mustafayev və 100-dək gənc iştirak etmişdir.




Toplantını giriş sözü ilə açan rayon gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov tədbirin keçirilməsində məqsəd Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramının Tədbirlər Planının 6.5.7 yarımbəndinin icrasını təmin etmək və ilk dəfə səs verən gənclərin seçki proseduru ilə bağlı maarifləndirilməsi, informasiya çatışmazlığının aradan qaldırılması, gənclərin seçkilərdə aktiv iştirakına töhfə verməkdən ibarət olduğunu bildirdi.



Daha sonra rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanova çıxış edərək bildirdi ki, bu il ölkəmizdə mühüm siyasi kompaniya-Azərbaycan Respublikası Milli Məclisinə seçkilər keçiriləcəkdir. Azərbaycan Respublikasının qanunvericiliyi müasir dövlətlərin əksəriyyətində olduğu kimi, müəyyən olunmuş qaydada fəaliyyət qabiliyyətindən məhrum olmuş şəxslər istisna olmaqla, 18 yaşına çatmış bütün vətəndaşların aktiv seçki hüququnun olduğunu nəzərdə tutur. Natiq çıxışında vurğuladı ki, müşahidə olunur ki, bəzi gənclər ən adi seçki hüquqları haqqında, səsvermə prosedurаları, səsvermə qaydaları haqqında məlumatsızdırlar. Bu vəziyyət daha çox yaşı 18-ə çatmış və ilk dəfə səs verən gənclər arasında müşahidə olunur. Bu baxımdan belə tədbirlərin həyata keçirilməsi aktuallıq kəsb edir. Bu layihə seçkilərin praktiki-qanunvericilik aspektlərinin daha dərindən dərkinə, son nəticədə isə gənclərin maarifləndirilməsinə və eyni zamanda seçkilərdə daha fəal iştirakına imkan yaradacaq.

116 saylı Qəbələ Dairə Seçki Komissiyasının əməkdaşı Xalidə Rəsulova və rayon ağsaqqalar şurasının sədri Nazim Mustafayev çıxışları zamanı Azərbaycanda seçkilərin keçirilməsi prinsipləri, seçicilərin vəzifələri, səsvermə günü "exit poll"un keçirilməsi barədə geniş məlumat verərək gənc seçiciləri aktiv olmağa dəvət etdilər.

Tədbirin sonunda ilk dəfə səs verən gənclərə "İlk dəfə səs verən gənclər üçün yaddaş kitabçası", seçkilərlə əlaqədar təlimat, qaydalar və maarifləndirici proşürlər paylandı və onları maraqlandıran suallara ətraflı cavablar verildi.

**Məhəmmədəli SƏFƏRÇİNOV,**
**Qəbələ Rayon Gənclər və İdman İdarəsinin baş məsləhətçisi.**
**Fotolar İ. Vəlizadənindir.**

# Ötən əsrdə müstəqillik xalqımızın taleyinə iki dəfə qismət oldu

Hər il oktyabr ayının 18-də xalqımız müstəqillik gününü təntənə ilə qeyd edir. 19 əsrin əvvəllərindəki rus işğalından sonra müstəqilliyimiz ilk dəfə ötən əsrin 18-ci ilində əldə olunmuşdur. 1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı. Məlum məsələdir ki, müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən qat-qat çətindir. Gərək sınaqlara hazır olasan, hər bir əziyyətə və çətinliyə dözməyi bacarasan. Təəssüf ki, Azərbaycan Xalq Cümhuriyyəti bu çətinliklərə dözməyə tam hazır deyildi. Daxili çəkişmələr, beynəlxalq təminatın olmaması və xarici müdaxilənin nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti az ömürlü oldu. Tale elə gətirdi ki, Sovet imperiyasının dağılması Azərbaycan xalqına ikinci dəfə öz milli müstəqilliyini bərpa etmək imkanı verdi.

1991-ci il Meydanlar kükrəyirdi. Azadlığın yaxınlaşdığını duyan xalq öz əzəli və əbədi arzusuna qovuşmaq, həmin tarixi anı tezləşdirmək üçün hər şeyə hazır idi. Bu xalq artıq meydan hərəkatında bərkimiş, yanvar qırğınını görmüşdü. İmperiyanın tankları da artıq azadlığa gedən yolun qarşısını kəsməyə qadir deyildi. Özünün istiqlal mübarizəsində neçə-neçə şəhid və qurbanlar vermiş azərbaycan addım-addım, inadla müstəqilliyə doğru gedirdi.

Bir tərəfdən imperiyanın dağılmağa başlaması, digər tərəfdən xalqın artmaqda olan təzyiqi respublikanın hakim dairələrini manevr etmək məcburiyyətində qoymuşdu. Yuxarılarda belə hesab edirdilər ki, bu sənədin qəbul edilməsi xalqı sakitləşdirəcək, hakimiyyətin ömrünü uzatmağa imkan verəcəkdir. Ona görə də təsadüfi deyildi ki, müstəqillik haqqında "Konstitusiya Aktı" ilkin mərhələdə yalnız quru kağız olaraq qalır, Azərbaycan yenə də Moskvadan idarə edilir, rejim Kremlin dediyi ilə oturub dururdu.

Azərbaycan Respublikasında 1991-ci il dekabrın 29-da ümumxalq səsverməsi keçirildi. Referendum bülleteninə bir söz yazılmışdı. "Siz Azərbaycanın dövlət müstəqilliyi haqqında Azərbaycan Respublikası Ali Sovetinin qəbul etdiyi Konstitusiya Aktına tərəfdarsınızmı"?. Səsvermə hüququ olanların 95 faizindən çoxu referendumda iştirak etdi.

(Ardı 5-ci səhifədə).